# Bakıda Lüsern Dünya Turizm Forumunun toplantısı keçiriləcək

İyulun 3-də mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Bakıda səfərdə olan Lüsern Dünya Turizm Forumunun sədri Reto Viver və baş meneceri Martin Bart ilə görüşüb.

Mədəniyyət və Turizm Nazirliyindən bildirilib ki, qonaqları salamlayan nazir ölkəmizdə qeyri-neft sektorunun prioritet istiqamətlərdən biri olduğunu, bu xüsusda turizm sahəsinin inkişafına, o cümlədən beynəlxalq turizm əlaqələrinə, təcrübə mübadiləsinə mühüm önəm verildiyini diqqətə çatdırıb. Bu baxımdan Azərbaycanın cari ilin aprelində İsveçrə Konfederasiyasının Lüsern şəhərində keçirilən 4-cü Lüsern Dünya Turizm Forumunda iştirakının əhəmiyyəti vurğulanıb.

Reto Viver Azərbaycanın Lüsern Forumunda qonaq ölkə qismində iştirakı çərçivəsində keçirilən möhtəşəm təqdimatdan söz açaraq bu tədbirdən sonra ölkəmizə marağın daha da artdığını qeyd edib: “Bu çox gözəl təqdimat idi. Azərbaycan mədəniyyətinin və milli mətbəx nümunələrinin nümayişi hər kəsin marağına səbəb oldu. Artıq İsveçrədə ölkənizi daha çox tanıyırlar”.



Qonaq Azərbaycanda turizmin inkişafına göstərilən diqqətin təqdirəlayiq olduğunu və ölkəmizdə bu sahənin inkişafının beynəlxalq turizm təşkilatlarının da diqqətini çəkdiyini deyib.

Nazir də öz növbəsində son illər Azərbaycanın mədəniyyət və turizm sahəsində əldə etdiyi nailiyyətlərdən, Bakının evsahibliyi etdiyi beynəlxalq tədbirlərdən bəhs edib. Bildirib ki, bu tədbirlər ölkəmizin dünyada daha da tanıdılmasına səbəb olub.

Sonra qonaqlar “Lüsern Dünya Turizm Forumu”nda Azərbaycanın iştirakı ilə bağlı hazırlanmış fotoalbomu nazirə təqdim etdilər.

Söhbət zamanı 2016-cı ilin martında Lüsern Dünya Turizm Forumunun beyin mərkəzlərinin toplantısının Bakıda keçirilməsi ətrafında fikir mübadiləsi aparılıb..

**AZƏRTAC**